Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin ____________ 2023-cü il tarixli _____ nömrəli əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında**
**Əmlak Məsələləri Dövlət Xidmətinin**
**Dövlət əmlakının özəlləşdirilməsinin təşkili şöbəsinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin (bundan sonra – Xidmət) struktur bölməsi olan Dövlət əmlakının özəlləşdirilməsinin təşkili şöbəsi (bundan sonra - şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində dövlət əmlakının özəlləşdirilməsi və qiymətləndirilməsini, bu sahəyə investisiyaların cəlb olunmasının təşkilini və tənzimlənməsini həyata keçirir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni" və Xidmətin Əsasnaməsini, digər qanunvericilik aktlarını, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin (bundan sonra - Nazirlik) Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra - nazir) və Xidmət rəisinin əmr və sərəncamlarını (bundan sonra - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Xidmətin struktur bölmələri və tabeliyindəki qurumları (bundan sonra – Xidmətin strukturları) ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.0. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.0.1. dövlət əmlakının özəlləşdirilməsi və bu sahəyə investisiyaların cəlb olunmasını təşkil edir;

2.0.2. dövlət əmlakının inventarlaşdırılmasını və qiymətləndirilməsini təşkil edir;

2.0.3. investisiya müsabiqələrinin təşkili və özəlləşdirmə barədə bağlanılmış əqdlərdə nəzərdə tutulmuş öhdəlik və şərtlərin yerinə yetirilməsinə nəzarəti həyata keçirir;

2.0.4. dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılmış səhmdar cəmiyyətlərinin emissiya prospektinin qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət qeydiyyatına alınmasını təmin edir;

2.0.5. dövlət əmlakının özəlləşdirilməsi prosesində Xidmət tərəfindən bağlanılan müqavilələri hazırlamaq və qeydiyyatının aparılmasını təmin edir;

2.0.6. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, fiziki və hüquqi şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaq sahələrinin monitorinqini aparır;

2.0.7. monitorinqlərin və auditin təşkili sahəsində tədbirlər həyata keçirir;

2.0.8. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.0. Şöbənin bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərindən irəli gələn aşağıdakı vəzifələri vardır:

3.0.1. "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"na uyğun olaraq kiçik dövlət müəssisə və obyektlərinin və icarəyə verilmiş dövlət əmlakının özəlləşdirilməsinin həyata keçirilməsini təşkil etmək;

3.0.2. dövlət əmlakının özəlləşdirilməsi prosesini tənzimləyən normativ-hüquqi, metodiki və digər sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

3.0.3. kiçik dövlət müəssisə və obyektlərinin (avadanlıqların), tikintisi dondurulmuş, tikintisinin normativ müddətləri ötmüş və tikintisi başa çatdırılmamış obyektlərin, icarəyə verilmiş və istifadəsiz dövlət əmlakının, yerli icra hakimiyyəti orqanlarının sərəncamında olan, habelə yaşayış binalarında yerləşib dövlət vəsaiti hesabına inşa edilmiş qeyri-yaşayış sahələrinin özəlləşdirilməsini təmin etmək məqsədilə Xidmətin ərazi şöbələrində müvafiq ilkin sənədlərin hazırlanması və təqdim edilməsi ilə bağlı tədbirlər görmək, sənədlər toplusunu qəbul edib ekspertizasını keçirmək, obyektlərin özəlləşdirilməsi barədə sərəncam layihələrini hazırlamaq;

3.0.4. icarəçilər tərəfindən satın alınmasından imtina edilən dövlət əmlakının özəlləşdirilməsi üzrə işləri təşkil etmək;

3.0.5. dövlət müəssisə və təşkilatlarının tərkibindən onların hər hansı bölməsinin (bina, tikili, qurğu və digər əmlakın) çıxarılması və ayrıca özəlləşdirilməsi barədə təkliflər vermək;

3.0.6. müəssisənin özəlləşdirmə komissiyasının təklifləri əsasında özəlləşdirilən müəssisə və obyektlərə məxsus olmuş sosial-mədəni, kommunal-məişət, mülki müdafiə, səfərbərlik təyinatlı

obyektlərin və özəlləşdirilməsi nəzərdə tutulmayan digər əmlakın aidiyyəti üzrə balansdan-balansa verilməsi barədə təkliflər vermək;

3.0.7. dövlət əmlakının ilkin (start) qiymətinin müəyyən edilməsi üçün tədbirlər görmək, bu məqsədlə məsləhətçilərin və müstəqil qiymətləndiricinin cəlb edilməsi barədə təkliflər vermək;

3.0.8. özəlləşdirilmiş müəssisə və obyektlərin büdcəyə möhlətli ödəmə borclarının toplanmasında iştirak etmək, dövlət əmlakının alıcıları ilə bağlanılmış alqı-satqı və girov müqavilələrinin şərtlərinə riayət edilməsinə nəzarətin həyata keçirilməsində iştirak etmək;

3.0.9. dövlət əmlakının özəlləşdirilməsindən daxil olması nəzərdə tutulmuş vəsaitlərin vaxtında ödənilməsinə nəzarət etmək və əldə edilən vəsaitin dövlət büdcəsinə daxil olmasına nəzarətin həyata keçirilməsində iştirak etmək;

3.0.10. dövlət əmlakının özəlləşdirilməsi prosesini ictimai nəzarət və şəffaflıq prinsipləri əsasında həyata keçirmək, özəlləşdirmə prosesində əmək kollektivi üzvlərinin hüquqlarının və sosial ədalət prinsipinin qorunması üçün tədbirlər görmək;

3.0.11. Xidmətin fəaliyyət istiqamətlərinə aid sahələrdə təsdiq edilmiş dövlət proqramlarının icrası barədə müəyyən olunmuş qaydada hesabatların hazırlanmasında iştirak etmək;

3.0.12. dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi ilə bağlı sənədlərin özəlləşdirmə komissiyaları tərəfindən işlənib hazırlanmasını təmin etmək;

3.0.13. dövlət müəssisələrinin özəlləşdirmə komissiyaları tərəfindən işlənib hazırlanmış və Xidmətə təqdim edilmiş özəlləşdirmə sənədlərini, o cümlədən müəssisələrin əmlakının inventarlaşdırılması və qiymətləndirilməsi aktlarını ekspertiza etmək, dövlət müəssisələrinin səhmdar cəmiyyətinə çevrilməsi haqqında sərəncam layihəsini hazırlamaq;

3.0.14. müəssisəni özəlləşdirmə komissiyasının təklifləri əsasında özəlləşdirilən dövlət müəssisələrinin əmlak kompleksinin tərkibindən hər hansı bölmənin (bina, tikili, qurğu və digər əmlakın) çıxarılması və ayrıca özəlləşdirilməsi işlərini təşkil etmək;

3.0.15. birgə müəssisələrin nizamnamə kapitalındakı dövlətin payının qiymətləndirilməsi və özəlləşdirilməsi ilə əlaqədar işləri təşkil etmək, bu məqsədlə məsləhətçilərin və müstəqil qiymətləndiricilərin cəlb edilməsi barədə təkliflər vermək;

3.0.16. özəlləşdirilməsi nəzərdə tutulan torpaq sahələrinin qiymətləndirilməsi ilə bağlı təkliflər hazırlayıb təqdim etmək;

3.0.17. özəlləşdirmə prosesində yaradılmış səhmdar cəmiyyətlərin səhmlərinin nəzarət zərfi və yaxud səhmlərin digər hissəsi dövlət mülkiyyətində qaldıqda müvafiq dövlət orqanlarının dövlətin adından çıxış etməsini təmin etmək məqsədilə təkliflər vermək;

3.0.18. müəssisələrin nizamnamə kapitalında dövlətə məxsus payların (səhmlərin)

saxlanılmasında və onların idarə olunmasının təmin edilməsində, habelə onlardan səmərəli istifadəyə nəzarətin həyata keçirilməsində, o cümlədən idarəetmə məqsədilə payların (səhmlərin) qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi və ya fiziki şəxslərə verilməsində iştirak etmək;

3.0.19. dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılmış səhmdar cəmiyyətlərinin səhmlərinin pul və ixtisaslaşdırılmış pul hərraclarında satışı ilə bağlı tədbirlər görmək;

3.0.20. özəlləşdirilmə prosesində yaradılmış səhmdar cəmiyyətlərinin səhmlərinin müvafiq üsullarla özəlləşdirilməsi barədə təkliflər vermək;

3.0.21. səhmdar cəmiyyətlərinin səhmlərinin alıcıları tərəfindən onların öhdəliklərinə riayət edilməsinə, özəlləşdirilmiş müəssisələrin yeni mülkiyyətçiləri tərəfindən özəlləşdirmə barədə bağlanılmış əqdlərdə nəzərdə tutulmuş öhdəlik və şərtlərin yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsində iştirak etmək;

3.0.22. səhmdar cəmiyyətlərinə çevriləcək dövlət müəssisələrinin rəhbərlərinə və özəlləşdirmə komissiyalarına sənədlərin və məlumatların təqdim edilməsi barədə sorğular vermək;

3.0.23. Xidmət tərəfindən müəssisədə özəlləşdirmə komissiyalarının yaradılması barədə təkliflər vermək;

3.0.24. dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılmış səhmdar cəmiyyətlərinin səhmlərinin buraxılışının və emissiya prospektlərinin dövlət qeydiyyatına alınması üçün tələb olunan sənədlərin hazırlanmasını və qeydə alınmasını təmin etmək;

3.0.25. orta və iri dövlət müəssisələrin özəlləşdirilməsi prosesini ictimai nəzarət və şəffaflıq prinsipləri əsasında həyata keçirmək, özəlləşdirmə prosesində əmək kollektivi üzvlərinin hüquqlarının və sosial ədalət prinsipinin qorunması üçün tədbirlər görmək;

3.0.26. dövlət əmlakının özəlləşdirilməsi prosesində təsis olunmuş və tam özəlləşdirilməmiş səhmdar cəmiyyətlərinə məxsus daşınar və daşınmaz əmlakın satılmasına, digər qaydada özgəninkiləşdirilməsinə razılıq verilməsi barədə müraciətlərə baxılmasında iştirak etmək;

3.0.27. dövlət payı olan səhmdar cəmiyyətlərində dövlət büdcəsinə çatacaq dividendlərin hesablanmasının və verilməsinin araşdırılmasında iştirak etmək, bu sahədə qanun pozuntuları aşkar olunduqda aidiyyəti orqanlar qarşısında məsələ qaldırılması barədə təkliflər vermək;

3.0.28. Xidmətin strukturları ilə birlikdə özəlləşdirmə prosesində yaradılmış səhmdar cəmiyyətlərin idarəetmə orqanları və səhmdarları ilə metodiki işlər aparmaq;

3.0.29. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, fiziki və hüquqi şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin və onların yerləşdiyi dövlət torpaq sahələrinin qanunvericilik aktlarına uyğun olaraq qiymətləndirilməsini və özəlləşdirilməsini təşkil etmək;

3.0.30. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, fiziki və hüquqi şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin özəlləşdirilməsini təmin etmək məqsədilə Xidmətin ərazi şöbələrində müvafiq ilkin sənədlərin hazırlanması və təqdim edilməsi ilə bağlı tədbirlər görmək, sənədlər toplusunu qəbul edib ekspertizasını keçirmək, torpaq sahələrinin özəlləşdirilməsi barədə sərəncam layihələrini hazırlamaq;

3.0.31. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, fiziki və hüquqi şəxslər tərəfindən inşa edilmiş obyektlərin yerləşdiyi torpaq sahələri haqqında məlumatları toplamaq və sistemləşdirmək;

3.0.32. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, fiziki və hüquqi şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin özəlləşdirilməsinin sürətləndirilməsi məqsədi ilə tədbirlər görmək, monitorinqlər aparmaq, monitorinqlər zamanı aşkar edilmiş qanun pozuntusu hallarının aradan qaldırılması ilə bağlı tədbirlər görmək və Xidmətin aidiyyəti qurumlarına məlumat vermək;

3.0.33. özəlləşdirilməsi nəzərdə tutulan torpaq sahələrinin ayrılmasını təsdiq edən sənədlərin əldə edilməsi mümkün olmadıqda yerli icra hakimiyyəti orqanları ilə birlikdə onların hüdudlarının müəyyən edilməsi məqsədilə müvafiq tədbirləri həyata keçirmək;

3.0.34. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin yerləşdiyi torpaq sahələrinin qanunvericiliklə nəzərdə tutulmuş hallarda hərraclar vasitəsi ilə satışı işini təşkil etmək;

3.0.35. icra hakimiyyəti orqanlarından, dövlət müəssisə, idarə və təşkilatlarından, təsərrüfat fəaliyyəti göstərən subyektlərdən dövlət əmlakının özəlləşdirilməsinə dair sənədləri və digər məlumatları almaq məqsədi ilə təkliflər vermək;

3.0.36. Xidmətin ərazi şöbələrinin fəaliyyətinə dövlət əmlakının özəlləşdirilməsinin təşkili istiqamətində funksional rəhbərliyi həyata keçirmək;

3.0.37. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət kəsb edən dövlət müəssisə və obyektlərinin özəlləşdirilməsi barədə təkliflər vermək və həmin obyektlərin özəlləşdirilməsi işlərini təşkil etmək;

3.0.38. dövlət müəssisələrinin investisiya cəlbediciliyinin artırılması istiqamətində təkliflərin hazırlanmasında iştirak etmək;

3.0.39. strateji əhəmiyyət kəsb edən dövlət müəssisələrinin özəlləşdirilməsi ilə bağlı şərtlərin müəyyən edilməsi ilə əlaqədar təkliflər vermək;

3.0.40. özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrinə və onların özəlləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə-iqtisadi təşkilatlar və xarici dövlətlər tərəfindən verilən kreditlərdən istifadə məqsədi ilə aidiyyəti nazirlik, xidmət və təşkilatlar cəlb olunmaqla investisiya layihələrinin müsabiqələrinin təşkili barədə təkliflər vermək və tədbirlər görmək;

3.0.41. dövlət müəssisələrinin özəlləşdirməqabağı və özəlləşdirilmiş müəssisələrin investisiya qoyuluşu imkanları haqqında məlumat bankını yaratmaq, potensial investorlar arasında həmin müəssisələrin imkanları ilə bağlı məlumatların yayılmasını təşkil etmək;

3.0.42. Azərbaycan Respublikasında xarici investisiyalı müəssisələrin uçotunu aparmaq, bu sahədə mövcud olan problemlərin aşkar edilməsini və onların aradan qaldırılmasını təmin etmək məqsədi ilə təhlil aparmaq və digər tədbirləri həyata keçirmək;

3.0.43. özəlləşdirilmiş dövlət müəssisələrinin səmərəli fəaliyyət göstərməsi üçün əlverişli mühitin yaradılması, investisiya mühitinin yaxşılaşdırılması və investisiyaların stimullaşdırılması ilə bağlı təkliflər hazırlamaq və tədbirlər həyata keçirmək;

3.0.44. özəlləşdirilməyə açıq elan edilmiş dövlət müəssisələrinə, o cümlədən onların özəlləşdirilməsi ilə bağlı həmin müəssisələrə investisiyaların cəlb edilməsi məsələləri ilə əlaqədar investisiya layihələrinin (proqramlarının) iqtisadi səmərəliliyi və məqsədəuyğunluğu barədə rəy vermək, investisiyaların cəlb edilməsi sahəsində bağlanılmış müqavilələrin icrası zamanı dövlət mənafelərinin qorunmasına nəzarəti həyata keçirmək;

3.0.45. fərdi layihələr üzrə və investisiya müsabiqəsi vasitəsi ilə özəlləşdiriləcək müəssisələrlə bağlı təkliflər vermək, onların özəlləşdirilməsi üzrə işləri təşkil etmək, müəssisələrin özəlləşdirilməsi ilə əlaqədar müsabiqələrin keçirilməsini təmin etmək;

3.0.46. dövlət əmlakının fərdi layihələr üzrə və investisiya müsabiqəsi vasitəsi ilə özəlləşdirilməsi üçün məsləhətçilərin cəlb edilməsi üzrə satınalmaların keçirilməsi ilə bağlı tədbirləri həyata keçirmək;

3.0.47. fərdi layihələr üzrə və investisiya müsabiqələri vasitəsi ilə özəlləşdirilməsi nəzərdə tutulan dövlət müəssisələrinin mövcud vəziyyətini, inkişaf meyllərini və müəssisələrin özəlləşdirilməsi imkanlarını təhlil etmək və müvafiq təkliflər hazırlamaq;

3.0.48. müsabiqələrin və tenderlərin qalibləri ilə imzalanan müqavilələrin layihələrini hazırlamaq, onların şərtlərinin icrasına nəzarətin həyata keçirilməsində iştirak etmək, məsləhətçilər və dövlət əmlakının alıcıları tərəfindən təqdim edilən aralıq və yekun hesabatları təhlil etmək, habelə həmin şərtlər vaxtında və ya düzgün icra edilmədikdə imzalanmış müqavilələrin müddəalarına uyğun olaraq tədbir görülməsi haqqında məsələ qaldırmaq;

3.0.49. dövlət müəssisə və təşkilatlarının, habelə özəlləşdirilməsi barədə qərar qəbul edilmiş dövlət müəssisələrinin restrukturizasiyası və özəlləşdirməqabağı sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi, habelə bu məqsədlə məsləhətçi və ekspertlərin cəlb edilməsi barədə təkliflər vermək;

3.0.50. müəssisələrin əmlakının inventarlaşdırılması və qiymətləndirilməsi aktlarını ekspertiza

etmək;

3.0.51. dövlət müəssisələrində institusional yeniləşmələr, kommunal və infrastruktur sahələrində islahatların aparılması barədə təkliflər vermək;

3.0.52. dövlət müəssisələrinin tabeçiliyinin və hüquqi şəxslərin nizamnamə kapitalında dövlətə məxsus payların (səhmlərin) idarəçilik funksiyasının dəyişdirilməsi barədə müraciətlərə baxılması və rəy hazırlanmasında iştirak etmək;

3.0.53. müəssisələrin özəlləşdirməqabağı restrukturizasiyası və sağlamlaşdırılması planlarına (proqramlarına) baxmaq və onların təsdiq edilməsi barədə təkliflər vermək;

3.0.54. müəssisələrin özəlləşdirməqabağı restrukturizasiyası və sağlamlaşdırılması tədbirlərinin tətbiqi barədə qərar qəbul etmək, Xidmətin səlahiyyətlərinə aid olmadıqda həmin məsələlərə dair Azərbaycan Respublikası Prezidentinə və Nazirlər Kabinetinə təqdim edilməsi üçün təkliflər vermək;

3.0.55. özəlləşdirməqabağı restrukturizasiya və sağlamlaşdırma tədbirləri barədə müəssisələr tərəfindən təqdim edilmiş və həyata keçirilməsi məqsədəuyğun hesab edilməyən təkliflər barədə əsaslandırılmış məlumatlar hazırlamaq;

3.0.56. müəssisələrin özəlləşdirməqabağı restrukturizasiyası və sağlamlaşdırılması ilə bağlı həyata keçirilən layihələrin icrasına qanunvericiliklə nəzərdə tutulmuş qaydada nəzarətin həyata keçirilməsində iştirak etmək;

3.0.57. fəaliyyət göstərməyən, habelə zərərlə işləyən və eyni zamanda sağlamlaşdırma tədbirlərinin tətbiqi iqtisadi cəhətdən əlverişli olmayan dövlət müəssisələrinin qanunvericiliyə uyğun qaydada ləğv edilməsi barədə təkliflərin hazırlanmasında iştirak etmək;

3.0.58. özəlləşdirmədən sonra dəstəklənməsi məqsədilə özəlləşdirilmiş müəssisələrin fəaliyyətinə dair məlumat bankının yaradılmasını təmin etmək;

3.0.59. fərdi layihələr və investisiya müsabiqələri vasitəsi ilə özəlləşdirilmiş müəssisələrin yeni mülkiyyətçiləri tərəfindən özəlləşdirmə barədə bağlanılmış əqdlərdə nəzərdə tutulmuş öhdəlik və şərtlərin, o cümlədən investisiya qoyuluşu (onun istiqamətləri, həcmi və müddətləri), sosial, iqtisadi və digər tələblərin yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;

3.0.60. strateji müəssisə və obyektlərin özəlləşdirmədən sonra dəstəklənməsi məqsədilə müəssisələrin özəlləşdirmədən sonrakı fəaliyyətinin monitorinqini həyata keçirmək, monitorinqin nəticələrinə görə müəssisələrin inkişaf istiqamətlərinə dair tövsiyələr hazırlamaq, müəssisələrin fəaliyyətinin dəstəklənməsi və yeni investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər görülməsi, kadrların hazırlanmasında köməklik edilməsi barədə təkliflərin hazırlanmasında iştirak etmək;

3.0.61. müəssisələrin özəlləşdirmədən sonra dəstəklənməsi tədbirlərinin tətbiqi ilə bağlı

müsabiqələrin təşkilində iştirak etmək;

3.0.62. fərdi layihələr üzrə və investisiya müsabiqələri vasitəsilə özəlləşdirilməsi barədə qərar qəbul edilmiş dövlət müəssisələrinin özəlləşdirmədən sonrakı fəaliyyətinin dəstəklənməsi və investisiya qoyuluşunun səmərəliliyinin təmin olunması məqsədi ilə mütəmadi olaraq onların fəaliyyət göstəricilərinin araşdırılmasında və monitorinqinin aparılmasında iştirak etmək;

3.0.63. dövlət əmlakının özəlləşdirilməsi prosesinin ictimai nəzarət və şəffaflıq prinsipləri əsasında həyata keçirilməsini, özəlləşdirmə prosesində əmək kollektivi üzvlərinin hüquqlarının və sosial ədalət prinsipinin qorunmasını təmin etmək məqsədilə tədbirlər görmək;

3.0.64. dövlət əmlakının özəlləşdirilməsi ilə əlaqədar iqtisadiyyatın ayrı-ayrı sahələrinin, sənayenin və istehsalın inkişaf dinamikasının təhlil edilməsində, proqnozlaşdırılmasında və perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində, bu barədə proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.0.65. özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrində və özəlləşdirmə prosesində olan müəssisələrdə rəqabət qabiliyyətli malların istehsalı üçün lazımi tədbirlərin həyata keçirilməsi, dövlət müəssisələrinin mövcud vəziyyətinin, inkişaf meyllərinin və müəssisələrin özəlləşdirilməsi imkanlarının təhlil edilməsi və müvafiq təkliflərin hazırlanmasında iştirak etmək;

3.0.66. dövlət əmlakının özəlləşdirilməsindən daxil olan vəsaitdən ayırmaların dövlət əmlakının özəlləşdirilməsində müstəqil maliyyə məsləhətçisinin cəlb edilməsi, müəssisələrin özəlləşdirməqabağı sağlamlaşdırılması, özəlləşdirmədən sonra strateji müəssisə və obyektlərin fəaliyyətinin dəstəklənməsi tədbirlərinin maliyyələşdirilməsi məqsədi ilə istifadə olunması barədə təkliflər vermək;

3.0.67. özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrinə və onların özəlləşdirilməsi ilə bağlı investisiya qoyuluşunun səmərəliliyinin yüksəldilməsi və özəlləşdirilən strateji müəssisə və obyektlərin fəaliyyətinin dəstəklənməsi sahəsində tədbirlərin müəyyən edilməsi məqsədilə dövlət mülkiyyətində olan və özəlləşdirilən müəssisələrdə araşdırmalar təşkil etmək, araşdırmaların nəticələri barədə məlumatların aidiyyəti orqanlara təqdim edilməsi barədə məsələ qaldırmaq;

3.0.68. müəssisələrdə institusional yeniləşmə və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi, dövlət əmlakının idarə edilməsi, özəlləşdirilməsi, özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrinə və onların özəlləşdirilməsi ilə bağlı investisiyaların cəlb olunması sahəsində normativ hüquqi aktların hazırlanmasında iştirak etmək;

3.0.69. özəlləşdirilmiş müəssisələrin yeni mülkiyyətçiləri tərəfindən özəlləşdirmə barədə bağlanmış əqdlərdə nəzərdə tutulmuş öhdəlik və şərtlərin yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsində iştirak etmək;

3.0.70. dövlət əmlakının özəlləşdirilməsi prosesində Xidmət tərəfindən bağlanılan müqavilələri hazırlamaq, qeydiyyatının aparılmasını təmin etmək;

3.0.71. birgə müəssisələrin nizamnamə kapitalındakı dövlətin payının alıcılarının mülkiyyət hüququna dair şəhadətnamələr vermək və qeydiyyatını aparmaq;

3.0.72. dövlət əmlakının (səhmlərinin, hissələrinin) investisiya müsabiqəsində hüquqi və fiziki şəxslərə satılmasına dair şəhadətnamələr vermək və qeydiyyatını aparmaq;

3.0.73. torpaq sahələrinin, müvafiq qanunvericiliyə əsasən hərrac vasitəsilə özəlləşdirilən müəssisə və obyektlərin, icarəyə verilmiş və Xidmət rəisinin sərəncamı ilə özəlləşdirilmiş dövlət əmlakının alıcıları ilə alqı-satqı müqavilələrinin bağlanılmasını təmin etmək;

3.0.74. özəlləşdirmə prosesində bağlanan əqdlərin daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınması və mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi məqsədi ilə məlumatları qeydiyyat orqanına təqdim olunmasını təşkil etmək;

3.0.75. özəlləşdirilmiş müəssisələrin yeni mülkiyyətçiləri tərəfindən özəlləşdirmə barədə bağlanılmış əqdlərdə nəzərdə tutulmuş öhdəlik və şərtlərin, sosial, iqtisadi və digər tələblərin yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsində iştirak etmək;

3.0.76. profili saxlanılmaqla özəlləşdirilmiş müəssisələrin yeni mülkiyyətçiləri tərəfindən həmin öhdəliyin yerinə yetirilməsinə nəzarəti həyata keçirmək, bu məqsədlə aidiyyəti qurumlar tərəfindən aparılmış monitorinq və araşdırmaların nəticələrinə uyğun olaraq bu sahədə müvafiq qanunvericiliyi və müqavilə şərtlərini pozan mülkiyyətçilərlə bağlı müvafiq tədbirlərin görülməsini təmin etmək;

3.0.77. dövlət əmlakının özəlləşdirilməsi prosesində Xidmət tərəfindən bağlanılmış müqavilələrin pozulması hallarında tədbirlərin görülməsini təmin etmək;

3.0.78. Xidmətin ərazi şöbələrinin dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı metodik sənədlərlə təmin edilməsi ilə əlaqədar təkliflər vermək, sənədlər toplusunun hazırlanmasında və metodik məsələlərin həllində köməklik göstərmək;

3.0.79. Xidmətin icraçı olduğu dövlət proqramları, strateji yol xəritələri və digər normativ hüquqi aktlarla müəyyən edilmiş tapşırıqların aidiyyəti üzrə tam həcmdə, vaxtında və keyfiyyətlə icrasını təmin etmək, icraya dair hesabatları (məlumatları) hazırlayıb müəyyən edilmiş qaydada təqdim etmək, bununla bağlı Xidmətdə monitorinq və qiymətləndirmənin aparılması üçün zəruri olan məlumatları vaxtında Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.0.80. Xidmətin strateji inkişaf, fəaliyyət və tədbirlər planlarının hazırlanmasında iştirak etmək, onların hazırlanması və icrası ilə bağlı aidiyyəti üzrə materialları Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.0.81. öz fəaliyyət istiqamətləri üzrə göstərilən xidmətlərin və iş proseslərinin optimallaşdırılması, habelə elektron xidmətlərə və rəqəmsal idarəetməyə davamlı keçidin təmin edilməsi, innovasiyaların tətbiq edilməsi ilə bağlı mütəmadi təhlillər aparmaq və innovativ inkişafa dair təkliflər hazırlayıb Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək, təkliflərin qəbulu və icrası ilə bağlı aidiyyəti üzrə tədbirlər görmək;

3.0.82. əsasnaməsi ilə müəyyən edilmiş əsas fəaliyyətlərini müntəzəm təhlil etmək, fəaliyyətinin şəffaflığının və səmərəliliyinin artırılması barədə təkliflər hazırlayıb Xidmət rəisinə təqdim etmək və bu istiqamətdə əməli tədbirlər görmək;

3.0.83. əsas fəaliyyət göstəriciləri üzrə proqnozların və tapşırıqların müəyyən edilməsinə dair təkliflər vermək, onların icrasına dair Xidmətdə analitik məlumat bazasının yaradılması ilə bağlı fəaliyyət istiqamətləri üzrə statistik göstəriciləri hazırlamaq və Xidmətə dövri (aylıq, rüblük, yarımillik və illik) hesabatları Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.0.84. Xidmətdə əsas fəaliyyət göstəriciləri üzrə müəyyən edilmiş proqnozların icrasının monitorinqini və qiymətləndirilməsi, həmçinin müvafiq iqtisadi-statistik, texniki-iqtisadi və analitik təhlillər aparmaq məqsədilə aidiyyəti üzrə zəruri məlumatları, arayışları, cədvəlləri və digər məlumatları hazırlayıb Xidmətin aidiyyəti struktur bölməsinə təqdim etmək, müvafiq fəaliyyət sahələrinin perspektiv inkişafı, müasirləşdirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması ilə bağlı təkliflər vermək;

3.0.85. müvafiq sahənin inkişafı ilə bağlı öz fəaliyyət istiqamətləri üzrə dövlət proqramlarının və digər normativ hüquqi aktların layihələrini hazırlamaq və hazırlanmasında iştirak etmək;

3.0.86. şöbəyə daxil olan müraciətləri vaxtında araşdırmaq və qoyulmuş məsələləri həll etmək;

3.0.87. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.0.88. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.0.89. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.0. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.0.1. müvafiq fəaliyyət sahələri və istiqamətləri üzrə müstəqil şəkildə təhlillər və araşdırmalar aparmaq, analitik materiallar hazırlamaq, Xidmətin rəhbərliyinə müvafiq təkliflər vermək;

4.0.2. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Xidmətin strukturlarından şifahi və yazılı qaydada şöbənin müəyyən etdiyi formada, müddətlərdə və dövrlər

üzrə arayış, məlumat, hesabatlar almaq;

4.0.3. Xidmətin strukturlarından, kənar təşkilatlardan mütəxəssislərin və ekspertlərin cəlb olunması üçün Xidmətin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

4.0.4. xidməti zərurətlə əlaqədar Xidmətin strukturlarına, dövlət, qeyri-dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə müvafiq qaydada sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.5. Xidmətin strukturları tərəfindən qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək, onlara dair rəy və təkliflər vermək;

4.0.6. müvafiq sahənin təkmilləşdirilməsi sahəsində təkliflər vermək;

4.0.7. fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.0.8. Xidmətdə və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Xidməti təmsil etmək, onların işində iştirak etmək, müvafiq sahədə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər vermək və aidiyyəti qurumlarla birlikdə müvafiq tədbirlər görmək;

4.0.9. fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı Xidməti dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.0.10. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə Xidmət rəisinə tabedir və onun qarşısında hesabat verir. Xidmət rəisi tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla, heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz. Şöbənin strukturuna Dövlət müəssisə və obyektlərin, səhmlərin (payların) özəlləşdirilməsinin təşkili sektoru, Torpaq sahələrinin özəlləşdirilməsinin təşkili sektoru və İnvestisiya müsabiqələrinin təşkili və öhdəliklərin icrasının monitorinqi sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazirliklə razılaşdırmaqla Xidmət rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdiri rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazirliklə razılaşdırmaqla Xidmət rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. Şöbə müdirinin müavini şöbə müdiri tərəfindən ona

həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Şöbə müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavinlərindən biri və ya Xidmət rəisi tərəfindən müəyyən edilən digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları Xidmət rəisi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Sektor müdirləri müəyyən edilmiş istiqamətlər üzrə sektorların qarşısında qoyulmuş vəzifələrin icrasına görə məsuliyyət daşıyırlar.

5.6. Şöbənin hər bir işçisi hazırladığı, ekspertizadan keçirdiyi və imzaladığı sənədin Azərbaycan Respublikasının qanunvericilik aktlarına, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin normativ hüquqi aktlarına, nazirin və Xidmət rəisinin əmr və sərəncamlarına uyğunluğuna görə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələr çərçivəsində şəxsən məsuliyyət daşıyır.

5.7. Şöbə müdiri:

5.7.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.7.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.7.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.7.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Xidmətin rəhbərliyinə təqdim edir;

5.7.5. şöbə tərəfindən bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.7.6. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görülməsi üçün Xidmətin rəhbərliyinə təqdimatlar verir;

5.7.7. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Xidmətin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.7.8. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.7.9. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.7.10. şöbəni təmsil edir.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

**6.1. Dövlət müəssisə və obyektlərin, səhmlərin (payların) özəlləşdirilməsinin təşkili sektorunun aşağıdakı vəzifələri vardır:**

6.1.1. "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"na uyğun olaraq orta və iri dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılmış səhmdar cəmiyyətlərinin səhmlərinin, kiçik dövlət müəssisə və obyektlərinin və icarəyə verilmiş dövlət əmlakının özəlləşdirilməsinin həyata keçirilməsini təşkil etmək;

6.1.2. dövlət əmlakının özəlləşdirilməsi prosesini tənzimləyən normativ-hüquqi, metodiki və digər sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

6.1.3. kiçik dövlət müəssisə və obyektlərinin (avadanlıqların), tikintisi dondurulmuş, tikintisinin normativ müddətləri ötmüş və tikintisi başa çatdırılmamış obyektlərin, icarəyə verilmiş və istifadəsiz dövlət əmlakının, yerli icra hakimiyyəti orqanlarının sərəncamında olan, habelə yaşayış binalarında yerləşib dövlət vəsaiti hesabına inşa edilmiş qeyri-yaşayış sahələrinin özəlləşdirilməsini təmin etmək məqsədilə Xidmətin ərazi şöbələrində müvafiq ilkin sənədlərin hazırlanması və təqdim edilməsi ilə bağlı tədbirlər görmək, sənədlər toplusunu qəbul edib ekspertizasını keçirmək, obyektlərin özəlləşdirilməsi barədə sərəncam layihələrini hazırlamaq;

6.1.4. icarəçilər tərəfindən satın alınmasından imtina edilən dövlət əmlakının özəlləşdirilməsi üzrə işləri təşkil etmək;

6.1.5. dövlət müəssisə və təşkilatlarının tərkibindən onların hər hansı bölməsinin (bina, tikili, qurğu və digər əmlakın) çıxarılması və ayrıca özəlləşdirilməsi barədə təkliflər vermək;

6.1.6. müəssisənin özəlləşdirmə komissiyasının təklifləri əsasında özəlləşdirilən müəssisə və obyektlərə məxsus olmuş sosial-mədəni, kommunal-məişət, mülki müdafiə, səfərbərlik təyinatlı obyektlərin və özəlləşdirilməsi nəzərdə tutulmayan digər əmlakın aidiyyəti üzrə balansdan-balansa verilməsi barədə təkliflər vermək;

6.1.7. özəlləşdirilmiş müəssisə və obyektlərin büdcəyə möhlətli ödəmə borclarının toplanmasında iştirak etmək, dövlət əmlakının alıcıları ilə bağlanılmış alqı-satqı və girov müqavilələrinin şərtlərinə riayət edilməsinə nəzarətin həyata keçirilməsində iştirak etmək;

6.1.8. dövlət əmlakının özəlləşdirilməsindən daxil olması nəzərdə tutulmuş vəsaitlərin vaxtında ödənilməsinə nəzarət etmək və əldə edilən vəsaitin dövlət büdcəsinə daxil olmasına nəzarətin həyata keçirilməsində iştirak etmək;

6.1.9. dövlət əmlakının özəlləşdirilməsi prosesini ictimai nəzarət və şəffaflıq prinsipləri əsasında həyata keçirmək, özəlləşdirmə prosesində əmək kollektivi üzvlərinin hüquqlarının və sosial ədalət prinsipinin qorunması üçün tədbirlər görmək;

6.1.10. Xidmətin fəaliyyət istiqamətlərinə aid sahələrdə təsdiq edilmiş dövlət proqramlarının icrası barədə müəyyən olunmuş qaydada hesabatların hazırlanmasında iştirak etmək;

6.1.11. dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi ilə bağlı sənədlərin özəlləşdirmə komissiyaları tərəfindən işlənib hazırlanmasını təmin etmək;

6.1.12. dövlət müəssisələrinin özəlləşdirmə komissiyaları tərəfindən işlənib hazırlanmış və Xidmətə təqdim edilmiş özəlləşdirmə sənədlərini, dövlət müəssisələrinin səhmdar cəmiyyətinə çevrilməsi haqqında sərəncam layihəsini hazırlamaq;

6.1.13. müəssisəni özəlləşdirmə komissiyasının təklifləri əsasında özəlləşdirilən dövlət müəssisələrinin əmlak kompleksinin tərkibindən hər hansı bölmənin (bina, tikili, qurğu və digər əmlakın) çıxarılması və ayrıca özəlləşdirilməsi işlərini təşkil etmək;

6.1.14. birgə müəssisələrin nizamnamə kapitalındakı dövlətin payının özəlləşdirilməsi ilə əlaqədar işləri təşkil etmək, bu məqsədlə məsləhətçilərin cəlb edilməsi barədə təkliflər vermək;

6.1.15. özəlləşdirmə prosesində yaradılmış səhmdar cəmiyyətlərin səhmlərinin nəzarət zərfi və yaxud səhmlərin digər hissəsi dövlət mülkiyyətində qaldıqda müvafiq dövlət orqanlarının dövlətin adından çıxış etməsini təmin etmək məqsədilə təkliflər vermək;

6.1.16. müəssisələrin nizamnamə kapitalında dövlətə məxsus payların (səhmlərin) saxlanılmasında və onların idarə olunmasının təmin edilməsində, habelə onlardan səmərəli istifadəyə nəzarətin həyata keçirilməsində, o cümlədən idarəetmə məqsədilə payların (səhmlərin) qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi və ya fiziki şəxslərə verilməsində iştirak etmək;

6.1.17. birgə müəssisələrin nizamnamə kapitalında dövlətə məxsus payların (səhmlərin) satılması haqqında şəhadətnamələr vermək və qeydiyyatını aparmaq;

6.1.18. dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılmış səhmdar cəmiyyətlərinin səhmlərinin pul və ixtisaslaşdırılmış pul hərraclarında satışı ilə bağlı tədbirlər görmək;

6.1.19. özəlləşdirilmə prosesində yaradılmış səhmdar cəmiyyətlərinin səhmlərinin müvafiq üsullarla özəlləşdirilməsi barədə təkliflər vermək;

6.1.20. səhmdar cəmiyyətlərinin səhmlərinin alıcıları tərəfindən onların öhdəliklərinə riayət edilməsinə, özəlləşdirilmiş müəssisələrin yeni mülkiyyətçiləri tərəfindən özəlləşdirmə barədə bağlanılmış əqdlərdə nəzərdə tutulmuş öhdəlik və şərtlərin yerinə yetirilməsinə nəzarətin həyata keçirilməsində iştirak etmək;

6.1.21. səhmdar cəmiyyətlərinə çevriləcək dövlət müəssisələrinin rəhbərlərinə və özəlləşdirmə komissiyalarına sənədlərin və məlumatların təqdim edilməsi barədə sorğular vermək;

6.1.22. Xidmət tərəfindən müəssisədə özəlləşdirmə komissiyalarının yaradılması barədə təkliflər vermək;

6.1.23. dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılmış səhmdar cəmiyyətlərinin səhmlərinin buraxılışının və emissiya prospektlərinin dövlət qeydiyyatına alınması üçün tələb olunan sənədlərin hazırlanmasını və qeydə alınmasını təmin etmək;

6.1.24. orta və iri müəssisələrin özəlləşdirilməsi prosesini ictimai nəzarət və şəffaflıq prinsipləri əsasında həyata keçirmək, özəlləşdirmə prosesində əmək kollektivi üzvlərinin hüquqlarının və sosial ədalət prinsipinin qorunması üçün tədbirlər görmək;

6.1.25. dövlət əmlakının özəlləşdirilməsi prosesində təsis olunmuş və tam özəlləşdirilməmiş səhmdar cəmiyyətlərinə məxsus daşınar və daşınmaz əmlakın satılmasına, digər qaydada özgəninkiləşdirilməsinə razılıq verilməsi barədə müraciətlərə baxılmasında iştirak etmək;

6.1.26. dövlət payı olan səhmdar cəmiyyətlərində dövlət büdcəsinə çatacaq dividendlərin hesablanmasının və verilməsinin araşdırılmasında iştirak etmək, bu sahədə qanun pozuntuları aşkar olunduqda aidiyyəti orqanlar qarşısında məsələ qaldırılması barədə təkliflər vermək;

6.1.27. Xidmətin strukturları ilə birlikdə özəlləşdirmə prosesində yaradılmış səhmdar cəmiyyətlərin idarəetmə orqanları və səhmdarları ilə metodiki işlər aparmaq;

6.1.28. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin və onların yerləşdiyi dövlət torpaq sahələrinin qanunvericilik aktlarına uyğun olaraq özəlləşdirilməsini təşkil etmək;

6.1.29. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin və onların yerləşdiyi və onların torpaq sahələrinin özəlləşdirilməsini təmin etmək məqsədilə Xidmətin ərazi şöbələrində müvafiq ilkin sənədlərin hazırlanması və təqdim edilməsi ilə bağlı tədbirlər görmək, sənədlər toplusunu qəbul edib ekspertizasını keçirmək, torpaq sahələrinin özəlləşdirilməsi barədə sərəncam layihələrini hazırlamaq;

6.1.30. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin və onların yerləşdiyi torpaq sahələri haqqında məlumatları toplamaq və sistemləşdirmək;

6.1.31. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin və onların yerləşdiyi torpaq sahələrinin özəlləşdirilməsinin sürətləndirilməsi məqsədi ilə tədbirlər görmək, monitorinqlər aparmaq, monitorinqlər zamanı aşkar edilmiş qanun pozuntusu hallarının aradan qaldırılması ilə bağlı tədbirlər görmək və Xidmətin aidiyyəti qurumlarına məlumat vermək;

6.1.32. özəlləşdirilməsi nəzərdə tutulan torpaq sahələrinin ayrılmasını təsdiq edən sənədlərin əldə edilməsi mümkün olmadıqda yerli icra hakimiyyəti orqanları ilə birlikdə onların hüdudlarının müəyyən edilməsi məqsədilə müvafiq tədbirləri həyata keçirmək;

6.1.33. özəlləşdirilən dövlət müəssisələrinin qanunvericiliklə nəzərdə tutulmuş hallarda hərraclar vasitəsi ilə satışı işini təşkil etmək;

6.1.34. özəlləşdirilmiş müəssisələrin yeni mülkiyyətçiləri tərəfindən özəlləşdirmə barədə bağlanmış əqdlərdə nəzərdə tutulmuş öhdəlik və şərtlərin yerinə yetirilməsinə nəzarət etmək;

6.1.35. dövlət əmlakının özəlləşdirilməsi prosesində Xidmət tərəfindən bağlanılan müqavilələri hazırlamaq və qeydiyyatını aparmaq;

6.1.36. birgə müəssisələrin nizamnamə kapitalındakı dövlətin payının alıcılarının mülkiyyət hüququna dair şəhadətnamələr vermək;

6.1.37. özəlləşdirmə prosesində bağlanan əqdlərin daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınması və mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi məqsədi ilə məlumatların qeydiyyat orqanına təqdim edilməsini təşkil etmək;

6.1.38. özəlləşdirilmiş müəssisələrin yeni mülkiyyətçiləri tərəfindən özəlləşdirmə barədə bağlanılmış əqdlərdə nəzərdə tutulmuş öhdəlik və şərtlərin, sosial, iqtisadi və digər tələblərin yerinə yetirilməsinə nəzarət etmək;

6.1.39. profili saxlanılmaqla özəlləşdirilmiş müəssisələrin yeni mülkiyyətçiləri tərəfindən həmin öhdəliyin yerinə yetirilməsinə nəzarəti həyata keçirmək, bu məqsədlə aidiyyəti qurumlar tərəfindən aparılmış monitorinq və araşdırmaların nəticələrinə uyğun olaraq bu sahədə müvafiq qanunvericiliyi və müqavilə şərtlərini pozan mülkiyyətçilərlə bağlı müvafiq tədbirlər görmək;

6.1.40. dövlət əmlakının özəlləşdirilməsi prosesində Xidmət tərəfindən bağlanılmış müqavilələrin pozulması hallarında tədbirlər görmək;

6.1.41. icarəyə verilmiş əmlakın özəlləşdirilməsinin sürətləndirilməsi məqsədilə tədbirlər görmək;

6.1.42. Xidmətin ərazi şöbələrinin dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı metodik sənədlərlə təmin edilməsi ilə əlaqədar təkliflər vermək, sənədlər toplusunun hazırlanmasında və metodik məsələlərin həllində köməklik göstərmək;

6.1.43. icra hakimiyyəti orqanlarından, dövlət müəssisə, idarə və təşkilatlarından, təsərrüfat fəaliyyəti göstərən subyektlərdən dövlət əmlakının özəlləşdirilməsinə dair sənədləri və digər məlumatları almaq məqsədi ilə təkliflər vermək;

6.1.44. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət kəsb edən dövlət müəssisə və obyektlərinin özəlləşdirilməsi barədə təkliflər vermək və həmin obyektlərin özəlləşdirilməsi işlərini təşkil etmək;

6.1.45. dövlət müəssisələrinin investisiya cəlbediciliyinin artırılması istiqamətində təkliflərin hazırlanmasında iştirak etmək;

6.1.46. strateji əhəmiyyət kəsb edən dövlət müəssisələrinin özəlləşdirilməsi ilə bağlı şərtlərin müəyyən edilməsi ilə əlaqədar təkliflər vermək;

6.1.47. özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrinə və onların özəlləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə-iqtisadi təşkilatlar və xarici dövlətlər tərəfindən verilən kreditlərdən istifadə məqsədi ilə aidiyyəti nazirlik, xidmət və təşkilatlar cəlb olunmaqla investisiya layihələrinin müsabiqələrinin təşkili barədə təkliflər vermək və tədbirlər görmək;

6.1.48. dövlət müəssisələrinin özəlləşdirməqabağı və özəlləşdirilmiş müəssisələrin investisiya qoyuluşu imkanları haqqında məlumat bankını yaratmaq, potensial investorlar arasında həmin müəssisələrin imkanları ilə bağlı məlumatların yayılmasını təşkil etmək;

6.1.49. Azərbaycan Respublikasında xarici investisiyalı müəssisələrin uçotunu aparmaq, bu sahədə mövcud olan problemlərin aşkar edilməsini və onların aradan qaldırılmasını təmin etmək məqsədi ilə təhlil aparmaq və digər tədbirləri həyata keçirmək;

6.1.50. özəlləşdirilmiş dövlət müəssisələrinin səmərəli fəaliyyət göstərməsi üçün əlverişli mühitin yaradılmasını təmin etmək;

6.1.51. özəlləşdirilməyə açıq elan edilmiş dövlət müəssisələrinə, o cümlədən onların özəlləşdirilməsi ilə bağlı həmin müəssisələrə investisiyaların cəlb edilməsi məsələləri ilə əlaqədar investisiya layihələrinin (proqramlarının) iqtisadi səmərəliliyi və məqsədəuyğunluğu barədə rəy vermək, investisiyaların cəlb edilməsi sahəsində bağlanılmış müqavilələrin icrası zamanı dövlət mənafelərinin qorunmasına nəzarəti həyata keçirmək;

6.1.52. Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, müəssisələrin nizamnamə kapitalında dövlətə məxsus payların (səhmlərin) saxlanılması və onların idarə olunmasının təmin edilməsi, habelə onlardan səmərəli istifadəyə nəzarətin həyata keçirilməsi, o cümlədən idarəetmə məqsədi ilə payların (səhmlərin) hüquqi və fiziki şəxslərə verilməsi barədə təkliflərin hazırlanmasında iştirak etmək;

6.1.53. dövlət müəssisə və təşkilatlarının, habelə özəlləşdirilməsi barədə qərar qəbul edilmiş dövlət müəssisələrinin restrukturizasiyası və özəlləşdirməqabağı sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi, habelə bu məqsədlə məsləhətçi və ekspertlərin cəlb edilməsi barədə təkliflər vermək;

6.1.54. dövlət müəssisələrində institusional yeniləşmələr, kommunal və infrastruktur sahələrində islahatların aparılması barədə təkliflər vermək;

6.1.55. dövlət müəssisələrinin tabeçiliyinin və hüquqi şəxslərin nizamnamə kapitalında dövlətə məxsus payların (səhmlərin) idarəçilik funksiyasının dəyişdirilməsi barədə müraciətlərə baxılması və rəy hazırlanmasında iştirak etmək;

6.1.56. müəssisələrin özəlləşdirməqabağı restrukturizasiyası və sağlamlaşdırılması planlarına (proqramlarına) baxmaq və onların təsdiq edilməsi barədə təkliflər vermək;

6.1.57. müəssisələrin özəlləşdirməqabağı restrukturizasiyası və sağlamlaşdırılması tədbirlərinin tətbiqi barədə qərar qəbul etmək, Xidmətin səlahiyyətlərinə aid olmadıqda həmin məsələlərə dair Azərbaycan Respublikası Prezidentinə və Nazirlər Kabinetinə təqdim edilməsi üçün təkliflər vermək;

6.1.58. özəlləşdirməqabağı restrukturizasiya və sağlamlaşdırma tədbirləri barədə müəssisələr tərəfindən təqdim edilmiş və həyata keçirilməsi məqsədəuyğun hesab edilməyən təkliflər barədə əsaslandırılmış məlumatlar hazırlamaq;

6.1.59. müəssisələrin özəlləşdirməqabağı restrukturizasiyası və sağlamlaşdırılması ilə bağlı həyata keçirilən layihələrin icrasına qanunvericiliklə nəzərdə tutulmuş qaydada nəzarətin həyata keçirilməsində iştirak etmək;

6.1.60. fəaliyyət göstərməyən, habelə zərərlə işləyən və eyni zamanda sağlamlaşdırma tədbirlərinin tətbiqi iqtisadi cəhətdən əlverişli olmayan dövlət müəssisələrinin qanunvericiliyə uyğun qaydada ləğv edilməsi barədə təkliflərin hazırlanmasında iştirak etmək;

6.1.61. özəlləşdirmədən sonra dəstəklənməsi məqsədilə özəlləşdirilmiş müəssisələrin fəaliyyətinə dair məlumat bankının yaradılmasını təmin etmək;

6.1.62. dövlət əmlakının özəlləşdirilməsi prosesinin ictimai nəzarət və şəffaflıq prinsipləri əsasında həyata keçirilməsini, özəlləşdirmə prosesində əmək kollektivi üzvlərinin hüquqlarının və sosial ədalət prinsipinin qorunmasını təmin etmək məqsədilə tədbirlər görmək;

6.1.63. dövlət əmlakının özəlləşdirilməsi ilə əlaqədar iqtisadiyyatın ayrı-ayrı sahələrinin, sənayenin və istehsalın inkişaf dinamikasının təhlil edilməsində, proqnozlaşdırılmasında və perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində, bu barədə proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

6.1.64. özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrində və özəlləşdirmə prosesində olan müəssisələrdə rəqabət qabiliyyətli malların istehsalı üçün lazımi tədbirlərin həyata keçirilməsi, dövlət müəssisələrinin mövcud vəziyyətinin, inkişaf meyllərinin və müəssisələrin özəlləşdirilməsi imkanlarının təhlil edilməsi və müvafiq təkliflərin hazırlanmasında iştirak etmək;

6.1.65. dövlət əmlakının özəlləşdirilməsindən daxil olan vəsaitdən ayırmaların dövlət əmlakının özəlləşdirilməsində müstəqil maliyyə məsləhətçisinin cəlb edilməsi, müəssisələrin özəlləşdirməqabağı sağlamlaşdırılması, özəlləşdirmədən sonra strateji müəssisə və obyektlərin fəaliyyətinin dəstəklənməsi tədbirlərinin maliyyələşdirilməsi məqsədi ilə istifadə olunması barədə təkliflər vermək;

6.1.66. dövlət əmlakının ilkin (start) qiymətinin müəyyən edilməsi üçün tədbirlər görmək, bu məqsədlə məsləhətçilərin və müstəqil qiymətləndiricinin cəlb edilməsi barədə təkliflər vermək;

6.1.67. müəssisələrin əmlakının inventarlaşdırılması və qiymətləndirilməsi aktlarını ekspertiza etmək;

6.1.68. birgə müəssisələrin nizamnamə kapitalındakı dövlətin payının qiymətləndirilməsi və özəlləşdirilməsi ilə əlaqədar işləri təşkil etmək, bu məqsədlə məsləhətçilərin və müstəqil qiymətləndiricilərin cəlb edilməsi barədə təkliflər vermək;

6.1.69. sektora daxil olan müraciətləri vaxtında araşdırmaq və qoyulmuş məsələləri həll etmək;

6.1.70. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları aidiyyəti hissədə və dövrlər üzrə hazırlamaq;

6.1.71. sektorun əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

6.1.72. sektorda kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin etmək;

6.1.73. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**6.2. Torpaq sahələrinin özəlləşdirilməsinin təşkili sektorunun vəzifələri aşağıdakılardır:**

6.2.1. “Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı”na uyğun olaraq torpaq sahələrinin özəlləşdirilməsinin həyata keçirilməsini təşkil etmək;

6.2.2. torpaq sahələrinin özəlləşdirilməsi prosesini tənzimləyən normativ-hüquqi, metodiki və digər sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

6.2.3. torpaq sahələrinin özəlləşdirilməsini təmin etmək məqsədilə Xidmətin ərazi şöbələrində müvafiq ilkin sənədlərin hazırlanması və təqdim edilməsi ilə bağlı tədbirlər görmək, sənədlər toplusunu qəbul edib ekspertizasını keçirmək, torpaq sahələrinin özəlləşdirilməsi barədə sərəncam layihələrini hazırlamaq;

6.2.4. icarəçilər tərəfindən satın alınmasından imtina edilən torpaq sahələrinin özəlləşdirilməsi üzrə işləri təşkil etmək;

6.2.5. torpaq sahələrinin ayrılması və bölünməsi üsulu ilə ayrıca özəlləşdirilməsi barədə təkliflər vermək;

6.2.6. torpaq sahələrinin ilkin (start) qiymətinin müəyyən edilməsi üçün tədbirlər görmək, bu məqsədlə məsləhətçilərin və müstəqil qiymətləndiricinin cəlb edilməsi barədə təkliflər vermək;

6.2.7. torpaq sahələrinin özəlləşdirilməsindən daxil olması nəzərdə tutulmuş vəsaitlərin vaxtında ödənilməsinə nəzarət etmək və əldə edilən vəsaitin dövlət büdcəsinə daxil olmasına nəzarətin həyata keçirilməsində iştirak etmək;

6.2.8. torpaq sahələrinin özəlləşdirilməsi prosesini ictimai nəzarət və şəffaflıq prinsipləri əsasında həyata keçirmək, özəlləşdirmə prosesində əmək kollektivi üzvlərinin hüquqlarının və sosial ədalət prinsipinin qorunması üçün tədbirlər görmək;

6.2.9. Xidmətin fəaliyyət istiqamətlərinə aid sahələrdə təsdiq edilmiş dövlət proqramlarının icrası barədə müəyyən olunmuş qaydada hesabatların hazırlanmasında iştirak etmək;

6.2.10. torpaq sahələrinin özəlləşdirmə komissiyaları tərəfindən işlənib hazırlanmış və Xidmətə təqdim edilmiş özəlləşdirmə sənədlərini ekspertiza etmək;

6.2.11. fiziki və hüquqi şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi dövlət torpaq sahələrinin qanunvericilik aktlarına uyğun olaraq özəlləşdirilməsini təşkil etmək;

6.2.12. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, fiziki və hüquqi şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin özəlləşdirilməsini təmin etmək məqsədilə Xidmətin ərazi şöbələrində müvafiq ilkin sənədlərin hazırlanması və təqdim edilməsi ilə bağlı tədbirlər görmək, sənədlər toplusunu qəbul edib ekspertizasını keçirmək, torpaq sahələrinin özəlləşdirilməsi barədə sərəncam layihələrini hazırlamaq;

6.2.13. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, fiziki və hüquqi şəxslər tərəfindən inşa edilmiş obyektlərin yerləşdiyi torpaq sahələri haqqında məlumatları toplamaq və sistemləşdirmək;

6.2.14. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin, fiziki və hüquqi şəxslər tərəfindən inşa edilmiş müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin özəlləşdirilməsinin sürətləndirilməsi məqsədi ilə tədbirlər görmək, monitorinqlər aparmaq, monitorinqlər zamanı aşkar edilmiş qanun pozuntusu hallarının aradan qaldırılması ilə bağlı tədbirlər görmək və Xidmətin aidiyyəti qurumlarına məlumat vermək;

6.2.15. özəlləşdirilməsi nəzərdə tutulan torpaq sahələrinin ayrılmasını təsdiq edən sənədlərin əldə edilməsi mümkün olmadıqda yerli icra hakimiyyəti orqanları ilə birlikdə onların hüdudlarının müəyyən edilməsi məqsədilə müvafiq tədbirləri həyata keçirmək;

6.2.16. özəlləşdirilən dövlət müəssisə və obyektlərinin yerləşdiyi torpaq sahələrinin qanunvericiliklə nəzərdə tutulmuş hallarda hərraclar vasitəsi ilə satışı işini təşkil etmək;

6.2.17. icra hakimiyyəti orqanlarından, dövlət müəssisə, idarə və təşkilatlarından, təsərrüfat fəaliyyəti göstərən subyektlərdən torpaq sahələrinin özəlləşdirilməsinə dair sənədləri və digər məlumatları almaq məqsədi ilə təkliflər vermək;

6.2.18. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət kəsb edən torpaq sahələrinin özəlləşdirilməsi barədə təkliflər vermək və həmin obyektlərin özəlləşdirilməsi işlərini təşkil etmək;

6.2.19. torpaq sahələrinin özəlləşdirilməsi prosesinin ictimai nəzarət və şəffaflıq prinsipləri əsasında həyata keçirilməsini, özəlləşdirmə prosesində əmək kollektivi üzvlərinin hüquqlarının və sosial ədalət prinsipinin qorunmasını təmin etmək məqsədilə tədbirlər görmək;

6.2.20. torpaq sahələrinin özəlləşdirilməsi ilə əlaqədar iqtisadiyyatın ayrı-ayrı sahələrinin, sənayenin və istehsalın inkişaf dinamikasının təhlil edilməsində, proqnozlaşdırılmasında və perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində, bu barədə proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

6.2.21. torpaq sahələrinin, müvafiq qanunvericiliyə əsasən hərrac vasitəsilə özəlləşdirilən müəssisə və obyektlərin, icarəyə verilmiş və Xidmət rəisinin sərəncamı ilə özəlləşdirilmiş dövlət əmlakının alıcıları ilə alqı-satqı müqavilələri bağlamaq;

6.2.22. özəlləşdirmə prosesində bağlanan əqdlərin daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınması və mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi məqsədi ilə məlumatları qeydiyyat orqanına təqdim edilməsini təşkil etmək;

6.2.23. özəlləşdirilmiş müəssisələrin yeni mülkiyyətçiləri tərəfindən özəlləşdirmə barədə bağlanılmış əqdlərdə nəzərdə tutulmuş öhdəlik və şərtlərin, sosial, iqtisadi və digər tələblərin yerinə yetirilməsinə nəzarət etmək;

6.2.24. profili saxlanılmaqla özəlləşdirilmiş müəssisələrin yeni mülkiyyətçiləri tərəfindən həmin öhdəliyin yerinə yetirilməsinə nəzarəti həyata keçirmək, bu məqsədlə aidiyyəti qurumlar tərəfindən aparılmış monitorinq və araşdırmaların nəticələrinə uyğun olaraq bu sahədə müvafiq qanunvericiliyi və müqavilə şərtlərini pozan mülkiyyətçilərlə bağlı müvafiq tədbirlər görmək;

6.2.25. dövlət əmlakının özəlləşdirilməsi prosesində Xidmət tərəfindən bağlanılmış müqavilələrin pozulması hallarında tədbirlər görmək;

6.2.26. sektora daxil olan müraciətləri vaxtında araşdırmaq və qoyulmuş məsələləri həll etmək;

6.2.27. sektorun əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

6.2.28. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları aidiyyəti hissədə və dövrlər üzrə hazırlamaq;

6.2.29. sektorda kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin etmək;

6.2.30. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər

vəzifələri yerinə yetirmək.

**6.3. İnvestisiya müsabiqələrinin təşkili və öhdəliklərinin icrasının monitorinqi sektorunun vəzifələri aşağıdakılardır:**

6.3.1. dövlət əmlakının özəlləşdirilməsi prosesini tənzimləyən normativ-hüquqi, metodiki və digər sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

6.3.2. orta və iri müəssisələrin özəlləşdirilməsi prosesini ictimai nəzarət və şəffaflıq prinsipləri əsasında həyata keçirməkdə iştirak etmək;

6.3.3. Xidmətin ərazi şöbələrinin dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı metodik sənədlərlə təmin edilməsi ilə əlaqədar təkliflər vermək, sənədlər toplusunun hazırlanmasında və metodik məsələlərin həllində köməklik göstərmək;

6.3.4. dövlət müəssisələrinin investisiya cəlbediciliyinin artırılması istiqamətində təkliflərin hazırlanmasında iştirak etmək;

6.3.5. strateji əhəmiyyət kəsb edən dövlət müəssisələrinin özəlləşdirilməsi ilə bağlı şərtlərin müəyyən edilməsi ilə əlaqədar təkliflər vermək;

6.3.6. özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrinə və onların özəlləşdirilməsi ilə bağlı beynəlxalq maliyyə-iqtisadi təşkilatlar və xarici dövlətlər tərəfindən verilən kreditlərdən istifadə məqsədi ilə aidiyyəti nazirlik, xidmət və təşkilatlar cəlb olunmaqla investisiya layihələrinin müsabiqələrinin təşkili barədə təkliflər vermək və tədbirlər görmək;

6.3.7. dövlət müəssisələrinin özəlləşdirməqabağı və özəlləşdirilmiş müəssisələrin investisiya qoyuluşu imkanları haqqında məlumat bankını yaratmaq, potensial investorlar arasında həmin müəssisələrin imkanları ilə bağlı məlumatların yayılmasını təşkil etmək;

6.3.8. Azərbaycan Respublikasında xarici investisiyalı müəssisələrin uçotunu aparmaq, bu sahədə mövcud olan problemlərin aşkar edilməsini və onların aradan qaldırılmasını təmin etmək məqsədi ilə təhlil aparmaq və digər tədbirləri həyata keçirmək;

6.3.9. özəlləşdirilmiş dövlət müəssisələrinin səmərəli fəaliyyət göstərməsi üçün əlverişli mühitin yaradılması, investisiya mühitinin yaxşılaşdırılması və investisiyaların stimullaşdırılması ilə bağlı təkliflər hazırlamaq və tədbirlər həyata keçirmək;

6.3.10. özəlləşdirilməyə açıq elan edilmiş dövlət müəssisələrinə, o cümlədən onların özəlləşdirilməsi ilə bağlı həmin müəssisələrə investisiyaların cəlb edilməsi məsələləri ilə əlaqədar investisiya layihələrinin (proqramlarının) iqtisadi səmərəliliyi və məqsədəuyğunluğu barədə rəy vermək, investisiyaların cəlb edilməsi sahəsində bağlanılmış müqavilələrin icrası zamanı dövlət mənafelərinin qorunmasına nəzarəti həyata keçirmək;

6.3.11. fərdi layihələr üzrə və investisiya müsabiqəsi vasitəsi ilə özəlləşdiriləcək müəssisələrlə bağlı təkliflər vermək, onların özəlləşdirilməsi üzrə işləri təşkil etmək, müəssisələrin özəlləşdirilməsi ilə əlaqədar müsabiqələrin keçirilməsini təmin etmək;

6.3.12. dövlət əmlakının fərdi layihələr üzrə və investisiya müsabiqəsi vasitəsi ilə özəlləşdirilməsi və ya idarəetməyə verilməsi üçün məsləhətçilərin cəlb edilməsi üzrə satınalmaların keçirilməsi ilə bağlı tədbirləri həyata keçirmək;

6.3.13. fərdi layihələr üzrə və investisiya müsabiqələri vasitəsi ilə özəlləşdirilməsi nəzərdə tutulan dövlət müəssisələrinin mövcud vəziyyətini, inkişaf meyllərini və müəssisələrin özəlləşdirilməsi imkanlarını təhlil etmək və müvafiq təkliflər hazırlamaq;

6.3.14. müsabiqələrin və tenderlərin qalibləri ilə imzalanan müqavilələrin layihələrini hazırlamaq, onların şərtlərinin icrasına nəzarətin həyata keçirilməsində iştirak etmək, məsləhətçilər və dövlət əmlakının alıcıları tərəfindən təqdim edilən aralıq və yekun hesabatları təhlil etmək, habelə həmin şərtlər vaxtında və ya düzgün icra edilmədikdə imzalanmış müqavilələrin müddəalarına uyğun olaraq tədbir görülməsi haqqında məsələ qaldırmaq;

6.3.15. dövlət müəssisələrinin idarəetməyə verilməsinə dair təkliflər vermək, bu barədə müsabiqələrin təşkilində, müqavilələrin hazırlanmasında və həmin müqavilələrin icrasına nəzarətin həyata keçirilməsində iştirak etmək, idarəetməyə dair müqavilələr üzrə müqavilə menecerlərinin fəaliyyətinin əlaqələndirilməsini həyata keçirmək;

6.3.16. dövlət əmlakının (səhmlərinin, hissələrinin) investisiya müsabiqəsində hüquqi və fiziki şəxslərə satılmasına dair şəhadətnamələr vermək və qeydiyyatını aparmaq;

6.3.17. fərdi layihələr və investisiya müsabiqələri vasitəsi ilə özəlləşdirilmiş müəssisələrin yeni mülkiyyətçiləri tərəfindən özəlləşdirmə barədə bağlanılmış əqdlərdə nəzərdə tutulmuş öhdəlik və şərtlərin, o cümlədən investisiya qoyuluşu (onun istiqamətləri, həcmi və müddətləri), sosial, iqtisadi və digər tələblərin yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;

6.3.18. fərdi layihələr üzrə və investisiya müsabiqələri vasitəsilə özəlləşdirilməsi barədə qərar qəbul edilmiş dövlət müəssisələrinin özəlləşdirmədən sonrakı fəaliyyətinin dəstəklənməsi və investisiya qoyuluşunun səmərəliliyinin təmin olunması məqsədi ilə mütəmadi olaraq onların fəaliyyət göstəricilərinin araşdırılmasında və monitorinqinin aparılmasında iştirak etmək;

6.3.19. dövlət əmlakının özəlləşdirilməsi ilə əlaqədar iqtisadiyyatın ayrı-ayrı sahələrinin, sənayenin və istehsalın inkişaf dinamikasının təhlil edilməsində, proqnozlaşdırılmasında və perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində, bu barədə proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

6.3.20. özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrində və özəlləşdirmə prosesində olan müəssisələrdə rəqabət qabiliyyətli malların istehsalı üçün lazımi tədbirlərin həyata keçirilməsi, dövlət müəssisələrinin mövcud vəziyyətinin, inkişaf meyllərinin və müəssisələrin özəlləşdirilməsi imkanlarının təhlil edilməsi və müvafiq təkliflərin hazırlanmasında iştirak etmək;

6.3.21. dövlət əmlakının özəlləşdirilməsindən daxil olan vəsaitdən ayırmaların dövlət əmlakının özəlləşdirilməsində müstəqil maliyyə məsləhətçisinin cəlb edilməsi, müəssisələrin özəlləşdirməqabağı sağlamlaşdırılması, özəlləşdirmədən sonra strateji müəssisə və obyektlərin fəaliyyətinin dəstəklənməsi tədbirlərinin maliyyələşdirilməsi məqsədi ilə istifadə olunması barədə təkliflər vermək;

6.3.22. strateji müəssisə və obyektlərin özəlləşdirmədən sonra dəstəklənməsi məqsədilə müəssisələrin özəlləşdirmədən sonrakı fəaliyyətinin monitorinqini həyata keçirmək, monitorinqin nəticələrinə görə müəssisələrin inkişaf istiqamətlərinə dair tövsiyələr hazırlamaq, müəssisələrin fəaliyyətinin dəstəklənməsi və yeni investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər görülməsi, kadrların hazırlanmasında köməklik edilməsi barədə təkliflərin hazırlanmasında iştirak etmək;

6.3.23. özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrinə və onların özəlləşdirilməsi ilə bağlı investisiya qoyuluşunun səmərəliliyinin yüksəldilməsi və özəlləşdirilən strateji müəssisə və obyektlərin fəaliyyətinin dəstəklənməsi sahəsində tədbirlərin müəyyən edilməsi məqsədilə dövlət mülkiyyətində olan və özəlləşdirilən müəssisələrdə araşdırmalar təşkil etmək, araşdırmaların nəticələri barədə məlumatların aidiyyəti orqanlara təqdim edilməsi barədə məsələ qaldırmaq;

6.3.24. müəssisələrdə institusional yeniləşmə və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi, dövlət əmlakının idarə edilməsi, özəlləşdirilməsi, özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrinə və onların özəlləşdirilməsi ilə bağlı investisiyaların cəlb olunması sahəsində normativ hüquqi aktların hazırlanmasında iştirak etmək;

6.3.25. sektora daxil olan müraciətləri vaxtında araşdırmaq və qoyulmuş məsələləri həll etmək;

6.3.26. Xidmətin fəaliyyət istiqamətlərinə aid sahələrdə təsdiq edilmiş dövlət proqramlarının icrası barədə hesabatların hazırlanmasında iştirak etmək;

6.3.27. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları aidiyyəti hissədə və dövrlər üzrə hazırlamaq;

6.3.28. sektorun əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

6.3.29. sektorda kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin etmək;

6.3.30. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər

vəzifələri yerinə yetirmək.